# Müstəqillik günü

Yüz dörd il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam oldu. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tamam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd etdi. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

2021-ci ilə qədər Azərbaycanda mayın 28-i Respublika Günü kimi qeyd edilirdi. Yeni qanun layihəsinə əsasən, 28 May - Respublika Gününün adı dəyişdirilib və bundan sonra mayın 28-i Müstəqillik Günü kimi qeyd edilir. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurub, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa edib. Beləliklə, "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununun layihəsində 1918-ci ildə "İstiqlal Bəyannaməsi"nin qəbul olunduğu 28 mayın Azərbaycan Respublikasında Müstəqillik Günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabrın isə Müstəqilliyin Bərpası Günü hesab olunması məntiqə söykənir.

Odur ki, tarixi hadisələrin düzgün tətbiqi zamanıdır. Təqvimdə 28 may tarixi Müstəqillik Günü, 18 oktyabr tarixi isə Müstəqilliyin Bərpası Günü kimi yenilənməli, təsbit olunmalı idi. Və elə də oldu.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğunu, 1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu nəzərə alaraq qərara alır:

Maddə 1. Mayın 28-i Müstəqillik Günü elan edilsin.

Maddə 2. Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin.

Maddə 3. Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin.

Bu qərar, birmənalı olaraq Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar edilməsi faktına əsaslanır. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir.

# Rodrigo Labardini Qəbələdə səfərdə olmuşdur

Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Flores Qəbələ rayonuna səfər etmişdir. Qəbələ RİH-də, rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev tərəfindən qarşılanan səlahiyyətli səfirə rayonun tarixi, iqtisadi vəziyyəti, sosial və mədəni həyatı barədə ətraflı məlumat verilmişdir. Diqqətə çatdırılmışdır ki, bu gün Qəbələ rayonunda turizm infrstrukturu başlıca və mühüm sahələrdən biri hesab olunur, ildən-ilə buraya dincəlmək üçün səfər edən turistlərin sayı nəzərə çarpacaq dərəcədə artır. Azərbaycanın bir çox bölgələrinə səfər etdiyini bildirən səfir Xuan Rodrigo Labardini Flores bu gün hər iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi və güclü tərəfdaşlıq əlaqələrinin qurulması üçün yaxşı imkanların mövcud olduğunu bildirmiş, Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını və bu inkişaf mərhələsinin Qəbələ rayonuna da təsirsiz ötüşmədiyini vurğulamışdır. Səfir turizm sahəsindəki əməkdaşlıq haqqında fikirlərini bölüşərkən ölkəmizin qonaqpərvərliyi, mədəniyyəti və mətbəxi ilə bütün dünyada tanındığını qeyd etmişdir. Daha sonra səlahiyyətli səfir və nümayəndə heyəti rayonun tarixi-mədəni məkanları, sənaye müəssisələri və turizm sektoru ilə yaxından tanış olmuşdur.



**Səfa ASLANOV, "Qəbələ"**

# Şuşanın simvolu - "Xarıbülbül" festivalı

Şuşanın özü qədər hüsnünü bəzəyən dağları, çəmənləri, çiçəkləri də əsrarəngizdir. Şuşanın rəmzi sayılan xarıbülbül gülünün dünyanın heç yerində oxşarı yoxdur. 1980-ci illərin sonundan keçirilməyə başlanan beynəlxalq musiqi festivalı da xarıbülbülün adı ilə adlandırılıb.

Şuşa şəhərində "Xarıbülbül" beynəlxalq musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Tədbir həmin ilin mayında, Şuşada xarıbülbülün çiçəklənmə dövründə düzənlənib. Ümumilikdə festivala 100-ə yaxın insan qatılıb. Cıdır düzü meydançasında tikilən 7 məkanda konsertlər təşkil olunub. "Qarabağ şikəstəsi" muğamı açılan festivalın ilk günündə bayram əhvali-ruhiyyəsi yaşanıb. Həmin gün Qarabağ atlarının da yarışları olub. Festival çərçivəsində Şuşada güləş yarışları keçirilib.

1990-cı ildə "Xarıbülbül" festivalı beynəlxalq status alıb. İkinci festivalda dünyanın bir çox ölkələrinin nümayəndələri iştirak etmişlər.

Üçüncü festival 1991-ci ildə təşkil olunub. 1990-1991-ci illərdə festivalın final konsertləri Bakıdakı Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) təşkil olunub.

Dördüncü festival 1992-ci ildə mayın 15-də başlamalı, o zamanadək keçirilənlərin ən möhtəşəmi olmalı idi. Lakin həmin ilin 8 mayında Şuşa şəhəri Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildi. "Xarıbülbül" musiqi festivalını o il Şuşada təşkil etmək mümkün olmadı. Festival yalnız qısa müddətdə Ağdam şəhərində, İmarət kompleksində keçirildi.



Bu işğaldan sonra Şuşa ənənəvi festivallı günlərinə qayıtmaq üçün uzun illər gözləməli oldu. 29 ildən sonra nəhayət, gözlədiyimiz an gəlib çatdı. 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz bərpa edilənddən sonra, Şuşa şəhəri azadlığına qovuşdu. 2021-ci il 12-13 may tarixlərində isə "Xarıbülbül" festivalı yenidən təşkil olundu. Azərbaycanın mədəniyyət paytaxtı 29 ildən sonra yenə doğmalarının, qonaqlarının üzünə öz qapılarını açdı.

Bu festivalda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak edirdilər. Tədbirə dövlət və hökumət rəsmiləri, mədəniyyət, ədəbiyyat və elm xadimləri qatılmışdı. Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivləri çıxış etdilər, xalq və klassik musiqi nümunələrindən ibarət zəngin və maraqlı proqram təqdim olundu.

2022-ci il 12 may tarixində isə yenidən Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğunun təşkilatçılığı ilə V Xarıbülbül Beynəlxalq Folklor Festivalına start verildi. Mayın 14-də başa çatan və sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başlayıb. Sonra Əməkdar artistlər İlkin Əhmədov, Babək Niftəliyev və Səbinə Ərəblinin ifasında "Qarabağ şikəstəsi"nin sədaları Şuşa dağlarına yayılıb.

Vətən müharibəsində Azərbaycana əsl qardaşlıq dəstəyi göstərən Türkiyəni festivalda Türk Dünyası Musiqi və Xalq Rəqsləri Ansamblı təmsil edib. Ansamblın ifasında "Van yöresi" xalq rəqsi maraqla qarşılanıb. Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu "Çal oyna" xalq mahnısını, "Cəngi" Estrada Folklor Rəqs Ansamblı "Tənzərə", Əməkdar artist Şirzad Fətəliyev və nəfəs alətləri qrupu isə "Turacı" xalq rəqslərini ifa ediblər.

Açılış konserti Əməkdar artist Aybəniz Haşımovanın və "Bülbüllər" qrupunun ifasında "Vətəndən pay olmayır" mahnısı ilə başa çatıb.

Bu gün Şuşa musiqimizin, muğamımızın sədaları altında müxtəlif mötəbər tədbirlərə ev sahibliyi edir. Mayın 12-14-də Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bunun əyani təsdiqidir. Bundan sonra Şuşanın simvollarından birinə çevrilən "Xarıbülbül" festivalı əbədi yaşayacaq.

**İlahə RƏHİMOVA, "Qəbələ"**

# İnformasiya əldə etmək hüququnun müdafiəsi ilə bağlı maarifləndirmə

Ombudsman-İsveç mənşəli sözdür. Mənası agent və ya sədr deməkdir. Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, lakin onlar tərəfindən qəbul edilmiş qərarları dəyişdirmək hüququ olmayan və layiqli vəzifəli şəxs başa düşülür.





Dünya təcrübəsinə görə, bu orqan parlament tərəfindən təsis olunur və onun qarşısında hesabat verir.

Ombudsman, funksiyalarını vətəndaşların tələbləri və şikayətləri üzrə öz şəxsi təşəbbüsü ilə həyata keçirir. Ombudsmanın hüquq statusu konstitusiya və digər hüquqi aktlarla müəyyən edilir.

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "İnformasiya əldə etmək hüququnun müdafiəsi ilə bağlı maarifləndirmə" mövzusunda tədbir keçirilmişdir. Tədbiri Rayon İcra hakimiyyətinin müavini Ətayə Osmanova açmışdır. Qəbələ RİH-nin, hüquq-mühafizə təhsil və səhiyyə işçilərinin iştirak etdiyi tədbirdə Ombudsman aparatının əməkdaşları tərəfindən İnformasiya əldə etmək hüququnun müdafiəsi şöbəsinin qanunvericilikdə müəyyən edilmiş qaydada informasiya əldə etmək hüququnun təmini, təbliği və təşviqi, bu hüququn pozulması ilə əlaqədar daxil olan müraciətlərin baxılması və cavablandırılması, monitorinqin həyata keçirilməsi və təhlillərin aparılması, bu sahədə hüquqi maarifləndirmənin, habelə informasiya əldə etmək hüququ ilə bağlı digər istiqamətlərdə geniş məlumat verilmişdir. Tədbirin sonunda "informasiya əldə etmək hüququmuzu bilək və onu təmin edək" mövzusunda hazırlanmış bukletlər paylanmışdır.

**"Qəbələ"**